

97

*Dedicated to the 97th Anniversary of the National Leader of Azerbaijan, Heydar Aliyev*

**IV INTERNATIONAL SCIENTIFIC CONFERENCE OF**

# YOUNG RESEARCHERS

## PROCEEDINGS

BAKU ENGINEERING UNIVERSITY, 2020
Baku/AZERBAIJAN

# MARAL RƏHMANZADƏ YARADICILIĞINDA "DƏLİ KÜR" ROMANINA ÇƏKILMIŞ İLLÜSTRASİYALAR (1983)

**Emil AĞAYEV**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
Sənətşünaslıq fakültəsi
*Emilaghayev93@mail.ru*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

XX əsr təsviri incəsənət tariximizə nəzər yetirsək Azərbaycanda kitab qrafikası tarixi inkişaf mərhələsi keçmişdir. Bu dövrdə bir çox sənətkarlarımız yeni yaradıcılıq uğurları ilə seçilirdilər. Belə ustad sənətkarlarımızdan biri də xalq rəssamı Maral Rəhmanzadədir. Məqalədə Maral Rəhmanzadə yaradıcılığında mühüm yer tutan "Dəli Kür" romanına çəkilmiş illüstrasiyalar təhlil edilmişdir.

**Açar sözlər:** MARAL RƏHMANZADƏ, KITAB QRAFIKASI, AZƏRBAYCAN

**GIRIŞ**

İncəsənətin özünəməxsus incəliklərini özündə birləşdirən təsviri sənət digər sahələrlə də sıx bağlıdır. İnsanların yaşadığı həyatı söz və rənglə əks etdirmək daha maraqlı, ifadəlidir. İlk vaxtlar mətnlə bağlı miniatüraların təsvir edilməsini nəzərə alsaq, XX əsrdən etibarən Azərbaycan təsviri incəsənət tarixinə nəzər yetirsək kitab qrafikası da inkişaf etməyə başlamışdır. Rəssamlarımızın həmin dönəmlərdə xarici ölkələrdə aldıqları təhsilləri onların bu sahənin ölkəmizdə inkişafına gətirib çıxarmışdır. A.Hacıyev, S.Şərifzadə, O.Sadıqzadə, M.Abdullayev kimi görkəmli sənətkarların yaradıcılığında ədəbiyyatımızda mühüm yer tutan yazıçıların əsərlərinə çəkilmiş illüstrasiyalar mühüm yer tutur. Öz yaradıcılığı ilə qadın sənətkarlarımız arasında xüsusilə söz açılan xalq rəssamı Maral Rəhmanzadənin yaradıcılığında da kitab qrafikası mühüm yer tutur.

**TƏDQIQAT METODU**

**Maral Rəhmanzadə yaradıcılığına baxış.** Maral Rəhmanzadə 1916-cı ildə Bakının Mərdəkan kəndində zərgər ailəsində anadan olmuşdur. 1930-cu ildə Bakıda rəssamlıq texnikumuna, 1934-cü ildə V.İ.Surikov adına Moskva Dövlət rəssamlıq instituna daxil olur.Təhsil aldığı illərdə B.Favorski, D.Moor, P.Pavlov və digər tanınmış sənətkarlardan təhsil alır. Rəssam tələbəlik illərindən qadın mövzusuna öz yaradıcılığında aktual olaraq müraciət etmişdir. Maral Rəhmanzadənin "Azərbaycan qadını keçmişdə və bu gün" adlı diplom işi rektor İqor Qrabarın diqqətini çəkir. 11 silsilədən ibarət diplom işini bütövlükdə Azərbaycan qadınının tarixi inkişaf mərhələsini özündə birləşdirən səlnamə adlandırmaq olar...

Maral Rəhmanzadə yaradıcılığında qadın mövzusu həmişə aktual almuşdur. Dağ kəndinin anaları" (1964) rəngli linoqravür texnikası ilə yerinə yetirilmiş əsərdə bənövşəyi və qırmızı rənglərində dağ qadınlarına məxsus geyimləri ilə təsvir edilmiş iki qadın obrazı verilmişdir. Arxa fonda təbiətin əks edilməsində miniatür ənələrinə xas olan şərti şəkildə həll edilmiş, məkan və obrazın qarşılıqlı münasibətlərinin kompozisiya daxilində bir-birini tamamlamasını görə bilərik."Azərbaycan qadınları" silsiləsinə daxil olan "Xalçaçılar.Qonaqkənd" (1964) əsərində bir qrup qadının ardıcıl olaraq toxuculuq dəzgahı qarşısında əyləşərək, milli geyimdə xalça toxumaları əks edilmişdir. Rənglər ritmik olaraq əsər boyu təkrarlanır. Rəssam dörd qadının geyimində ilin fəsillərini əhatə etmişdir.Bu silsiləyə daxil olan digər əsərdə isə bir qadının gəncliyi və qocalığı arasında dialoq yaradan rəssam özünəməxsus fəlsəfi-fikir yaratmışdır.Baş geyimlərində buta ornamentinin işıq-kölgə ilə vurğulanması, rəssamın milli ənənələrimizə üstünlük verdiyinin göstəricisidir. Xalq rəssamı Maral Rəhmanzadənin yaradıcılığına nəzər yetirsək 70-ci illərdə Naxçıvan silsiləsinə daxil olan əsərlərin birində simvolik təsvir həllindən istifadə edərək, Naxçıvanı ana obrazı ilə qarşılaşdırır. Ananın üzündəki qırışlar, geyimindəki ağ və çəhrayı rənglər, Naxçıvan təbiətinin qış və yaz fəsillərindəki gözəlliyinə işarədir. "Ana Naxçıvan" kompozisiyası ilə sənətkar qadını vətən, torpaq kimi daha da ucaldır....

Görkəmli rəssamlardan aldığı təhsil onun peşəkar rəssam kimi yetişməsinə gətirib çıxarır. İlk olaraq kağız üzərində kömür və karandaşla M.Y.Lermontovun "Aşıq Qərib" poemasına, daha sonra C.Cabbarlının "Qız qalası" poemasına çoxsaylı illüstrasiyalar ilə yaradıcılığını zənginləşdirmişdir. 1982-ci ildə rəssam İ.Şıxlının "Dəli Kür" romanına həsr edilən kitaba çəkilmiş illüstrasiyalar ilə mətnin daha da tamaşaçıya çatdırılmasına xidmət edir.

**"Dəli Kür" romanına çəkilmiş illüstrasiyalar.** 1982-ci ildə romanın yenidən nəşr olunması ilə bərabər, bu dəfəki sayında yenilik əsərə bir neçə maraqlı illüstrasiyalar da rəssam tərəfindən təsvir edilmişdir. "Cahandar ağanın Mələyi qaçırması" ( Şəkil1 )əsərində Göytəpə kəndinin ümumi mənzərəsi canlandırılmışdır. Əsas diqqət isə Cahandar ağanın Kürün sahilində bir neçə dəfə görüb aşiq olduğu Mələyi götürüb qaçma səhnəsidir. Atın dinamikası, üzərində əyləşən Cahandar ağanın məsum, yazıq, öz taleyində baş verən hadisələrlə əsərdə diqqəti çəkən Mələyi qucaqlamışdır. Kompozisiyada miniatür ənənələri diqqəti cəlb edir. Kürün spiralvari formada verilməsi, obrazların üzündəki ifadəliyin şərtiliyi ənənəvi incəsənətin qrafika sənətində də xüsusi yeri olduğunu göstərir.




Şəkil1."Cahandar ağanın Mələyi qaçırması"

Hadisələrin get-gedə dramatikləşməsi, əsərdəki gərginlik Zərnigar xanım və Mələk arasında olan münasibətlər kompozisiyada təsvir edilmişdir. Zərnigar xanımın qəzəbli baxışı, Mələyin həyəcanlı halda başını aşağı salması, Salatının baş verən hadisələrə titrəməsi, qorxması əsərdəki süjet xəttinin ağ-qara, rəng-ştrixlərlə bir daha tamaşaçıya maraqlı ifadəli tərzdə canlandırılmışdır. Maral Rəhmanzadə yaradıcılığında mühüm yer tutan qadın obrazlarına xas olan milli geyim ənənələri, naxış, ornamentlər, butanın ritmik olaraq təsviri əsərdəki gərginliyi azaldır. Məkanın kənd evlərinə xas olan formada xalça, qablar ilə bəzədilməsi rəssamın yaradıcılığına xas olan milli ənənələrimizin, məişət həyatının ön plana çəkilməsinin bir daha şahidi ola bilərik. (Şəkil2)



Şəkil 2. "Zərnigar xanımın qəzəbi"

"Molla Sadığın evi"(Şəkil3) romanda baş verən hadisələr, müridlərin Molla Sadığın evinə gəlməsi, meyxana qurulması, baş verən qeyri-adi "dini mərasim" rəssam tərəfindən canlandırılmışdır. Qrotesk şəklində yaradılmış obrazlar, müxtəlif insan simaları, Molla Sadıx və Şahnigar daha da iri formada verilmişdir.



Şəkil 3. “Molla Sadığın evi”

“Şahnigar xanım”(Şəkil4) - kompozisiyasında rəssam günəşli Göytəpə kəndinin qarşısında qəmli, lirik baxışlarıyla seçilən Şahnigar və torpağın altında isə kəfənə bükülmüş şəkildə dəfn edilən bəxtsiz qadın obrazı canlandırılmışdır. Cahandar ağanın öz bacısını, günəşli, Kürün qolunun ayrılması vaxtı öldürməsi Maral Rəhmanzadə bir daha təsvir dili ilə bu hadisəni əks etdirmişdir.



Şəkil 4. “Şahnigar xanım”

“Cahandar ağa” (Şəkil5) Əsərin baş qəhrəmanı, hadisələrin mərkəzində gedən daha sərt, geyimi və qəzəbli baxışları ilə seçilir. Obraz real, arxa fonda mənzərə önündə miniatüralarımıza xas olan şərti şəkildə təsviri ,hər iki janrın qarşılıqlı şəkildə verilməsini görə bilərik. Buludların spiralvari formada verilməsi uyğur ənənələrini xatırladır. Tüfəng və xəncər isə bizim xalqa xüsusilə məxsus olan qeyrət, namusun simvolik təsvir hələridir.



Şəkil 5.” Cahandar ağa”

Növbəti səhnədə Salatın Allahyar tərəfindən qaçırıldıqdan sonra, evə gətirilən qızının namusunun təmiz olmasına şübhə edən Cahandar ağa xəncəri çıxarıb onu ödürmək istəyir. Obrazların baxışları əsərdə baş verən hadislərin rəssam tərəfindən düzgün şəkildə çatdırılmasına xidmət edir. Şahnigarın isə ruh şəkildə qardaşına qızının namusunun təmiz olmasını bildirməsi, onu özü kimi günahsız şəkildə öldürməməsinin qarşısını alır. Ağ-qara ornamentlərin ritmik təkrarlanması, obrazların mimika və jestləri bu kompozisiyada xüsusilə vurğulanmalıdır. (Şəkil 6)



Şəkil 6. "Şübhə"

Göytəpə kəndində müsəlman uşaqların təhsil alması üşün çalışan Əhmədin və yanındakı şagirdlərinin, kazak dəstələrinin qarşısında verilməsini əsərdə baş verən hadisələrə rəssam tərəfindən də əsas diqqət mərkəzində saxlanıldığını, savadsızlığa qarşı mübarizə aparıldığı bir Göytəpə kəndinin vedutası, uyğur ənənələri, geyim mədəniyyəti əsərin əsas xüsusiyyətlərindəndir.

**NƏTICƏ**

Azərbaycan sənətşünaslığında ilk dəfə araşdırılan Maral Rəhmanzadə yaradıcılığında "Dəlim Kür" romanının illüstrasiyaları kitab qrafikası üçün yenilikdir. Rəssam bu əsərlərdə miniatür ənənələrindən, məişət, geyim mədəniyyətindən geniş şəkildə istifadə etmişdir.

**Ədəbiyyat siyahısı:**

1.İsmayıl Şıxlı "Dəli Kür" , Bakı 1982, 435 s